

بسم الله الرحمن الرحيم

# Saudi Arabia 2002



SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN AYLIQ XƏBƏRLƏR BÜLLETENİ

**7-Cİ BURAXILIŞ** **İYUl**

## İKİ MÜQƏDDƏS MƏSCİDİN XADİMİ : 20 İLLİK FƏDAKARLIQ VƏ İNKİŞAF !



20 il bundan öncə, daha dəqiq - 1402-ci hicri ilinin Şaban ayının 21-də, miladi tarixi ilə 1982 -ci ilin iyun ayının 12 -də İki Müqəddəs Məscidin Xadimi, Kral Fəhd bin Əbdüləziz Al Səud (Allah onun ömrünü uzatsın!) Səudiyyə Ərəbistanında hakimiyyətə gəlmiş və elə həmin gündən başlayaraq O, (Allah Onu hifz etsin!) Vətən və vətəndaşların mənafeyini Özünün prioritet vəzifələrinin ilk sıralarında görmüşdür. Məhz İki Müqəddəs Məscidin Xadimi, Kral Fəhd bin Əbdüləziz Al Səudun dövründə ölkədə idarəetmənin Əsas Qanunu, Şura Məclisi haqda Qanun və Regionlar haqqında Qanun 27.07.1412- ci hicri il (miladi 31 yanvar 1992-ci il) tarixdə qəbul edilmişdir Hər üç Qanun Ali islam Şəriəti əsasında Səudiyyə Dövlətinin prinsipləri, bu cəmiyyətin xüsusiyyətləri və ənənələri nəzərə alınmaqla hazırlanmış və bunların sayəsində ölkə bütün sahələrdə ən yüksək inkişaf səviyyələrinə çatmışdır Krallıq həmçinin İki Müqəddəs Məscidin Xadimi Kral Fəhd bin Əbdüləziz Al Səud dövründə ərəb, islam və beynəlxalq səviyyələrdə qabaqcıl yerlərə çıxmışdır...

*( Ardı 2-ci səh.)*




***Xarici İşlər Nazirliyindən mötəbər mənbə aşağıdakıları xəbər vermişdir....»***

Səudiyyə Ərəbistanı Krallığı Mərakeş Krallığı və ispaniya arasında cərəyan edən hadisələri böyük maraqla müşahidə edir və bildirir ki, Səudiyyə Ərəbistanı milli torpaqlarını qaytarmaq və qorumaq məsələsində qardaş Mərakeş xalqının tərəfindədir. Krallıq iki ölkə arasında mövcud olan tarixi əlaqələr və dostluqdan çıxış edərək problemin sülh yolu ilə həll olunmasına yönəlmiş çoxsaylı cəhdlərin uğurla nəticələndiyi mərhələdə İspaniyanın güc tətbiq etməsinə təəssüfünü bildirmişdir.

## BU SAYDA

*Əmir Səud əl Feysəl: « ABŞ Prezidenti paralel aparılan bütün danışıqları dəstəkləyir...»* səh. 1
*İnformasiya sistemləri və kütləvi informasiya vasitələri və idman...* Səh.2
*Dəniz daşınmaları barədə məlumat...* Səh.3
*Kosovo həkimləri...* Səh.3
*Səudiyyə Ərəbistanında İstehsal...* Səh.5



***Əmir Səud əl Feysəl: « ABŞ Prezidenti paralel aparılan bütün danışıqları dəstəkləyir...»***

Vaşinqton- Qəzzə sektoru. Xəbərlər agentliyi.Fələstin rəhbərliyi və bəzi ərəb ölkələri Səudiyyə Ərəbistanı, Misir və İordaniya Xarici İşlər Nazirlərinin Prezident Buş ilə görüşünü yekdilliklə salamlayırlar. Fələstin rəhbərliyi bu görüşün vacibliyini vurğulayır və orada Fələstin və İsrail hökümətlərinin nöqteyi-nəzərlərinin hamıya bəlli olduğunu qeyd etmişdir.Səudiyyə Ərəbistanının Xarici İşlər Naziri Şahzadə Əmir Səud əl-Feysəl Amerika Prezidentinin danışıqların bütün istiqamətlərdə - siyasi, təhlükəsizlik və iqtisadiyyat - paralel getməsini dəstəkləməsinin böyük əhəmiyyətini qeyd etmişdir.İsrail Fələstin torpağlarında çox müsibətlər etmiş, şəhidlərin qohumlarının evlərini dağıtmış, iyirmidən artıq insan həbs etmiş və onları sürgün ilə hədələmişdir. Buna baxmayaraq Vaşinqtondakı görüş sülhə doğru hərəkət imkanı və ümidi yaratmışdır.Xarici İşlər Nazirləri Amerika Prezidenti ilə görüş zamanı onun sülh prosessinin bərpa etməsinə yönəlmiş təşəbbüsünü müsbət qiymətləndirmişlər.Amerika Prezidenti ilə görüşdən əvvəl Şahzadə Əmir Feysəl Misir və İordaniya Nazirləri ilə jurnalistlərə verdiyi birgə bəyanatda qeyd etmişdir ki, onların Vaşinqtona səfəri Beyrut ümumərəb sammitində elan edilmiş ərəb təşəbbüsünün prinsiplərinə uyğundur.



***Nazirlər Məclisinin növbəti iclası İsrail hökümətinin Qəzzə şəhərinin yaşayış məhəllələsində törətdiyi və çoxsaylı insan tələfatı və yaralanması ilə nəticələnmiş dəhşətli cinayəti pisləmişdir***

Zati-aliləri Vəliəhd Əmir Abdulla bin Əbdüləziz dünən səhər Cenevrə şəhərində İki Müqəddəs Məscidin Xadiminin sağ gözünün kataraktına görə aparılan cərrahiyyə əməliyyatının müvəffəqiyyətlə keçməsi ilə bağlı Allah-Təalaya şükür etmişdir.Nazirlər Şurası Krala təbriklərini yetirmiş və Ona uzun ömür, cansağlığı və müvəffəqiyyət diləmişdir. Taif vilayətində əl-Əqiq sarayında İki Müqəddəs Məscidin Xadiminin müavininin sədrliyi altında keçirilmiş iclasda İsrail hökümətinin Qəzzə şəhərinin yaşayış məhəllələsində törətdiyi və çoxsaylı insan tələfatı (15nəfər, onlardan 9 uşaq) və yaralanması (170-dən artıq insan,əsasən qadın və qocalar) ilə nəticələnmiş dəhşətli cinayəti pisləmişdir və əlavə etmişdir ki, İsrail hökuməti evlərin dağıdılmasında, Fələstin əhalisinin blokadasında və Fələstin hökümətinin simvollarının ləğv edilməsində davam etməkdədir.Məclis təsdiq etmişdir ki, bu cinayət heç bir bəraəti olmayan terror aktı, müasir tariximizdə biyabırçı ləkədir və hazırda regionda hökm sürən zorakılığın və cinayətlərin, hər gün İsrail tərəfindən fələstinlilərin hüquqlarının tapdalanmasına son qoyulmasına yönəlmiş cəhdlərə və maraqlı olan tərəflərin Yaxın Şərqdə təhlükəsizliyin və sabitliyin bərqərar olunmasına xidmət edən sülh danışıqlarının davamına güclü zərbədir.

## İKİ MÜQƏDDƏS MƏSCİDİN XADİMİ : 20 İLLİK FƏDAKARLIQ VƏ İNKİŞAF !

*(Əvvəli 1-ci səh.)*

...Onun ölkə üçün xoşbəxtliyi ilə seçilən hakimiyyəti dövründə xarici siyasət effektivliyi, müdrikliyi və reallığı ilə seçilmiş, bir çox qaynar beynəlxalq problemlərə səbr və hikmətlə yanaşılmış və bunlarla bağlı qərarlar Kral Fəhdin ən mürəkkəb hadisə və problemlərə yanaşmada müdrikliyinin və zəkasının ifadəsi olaraq qəbul edilmişdir. Onun (Allah Onu hifz etsin!) Kuveytin azad edilməsindəki rolu müdrik siyasətinə açıq-aydın misaldır. İki Müqəddəs Məscidin Xadimi Kral Fəhd bin Əbdüləzizin hakimiyyətə gəlməsinin iyirmi illiyi münasibətilə Səfirliyin nəşr etdiyi bülletenin 6-cı nömrəsi Onun ölkə üçün xoşbəxtlik rəmzi olan dövründə əldə olunmuş nəhəng nailiyyətləri sırasında əhalinin sosial müdafiəsi sahəsində görülən işləri xüsusi vurğulamağı və bu haqda məlumatlarla möhtərəm oxucuları məlumatlandırmaqdan böyük şərəf duyduğunu bəyan edir və bu nailiyyətlərlə onları tanış etməyi özünə borc bilir.





## *İnformasiya sistemləri və kütləvi informasiya vasitələri və idman*

Səudiyyə Ərəbistanı informasiya sistemləri və kütləvi informasiya vasitələri sahələrində apardığı siyasətdə İslamı rəhbər tutur. Kütləvi informasiya vasitələrinin məhsullarının keyfiyyətinə İnformasiya üzrə Ali Sovet tərəfindən nəzarət edilir.

***Radio***

Səudiyyə radio xidməti dörd müxtəlif radiokanal vasitəsilə verilişlərini yayımlayır. Bunlar İctimai proqram, İkinci proqram, İslamın səsi və Müqəddəs Quran radiosu kanallarıdır. Verilişlər bir neçə dildə bütün İslam aləminə translyasiya edilir.

***Televiziya***

Səudiyyə Ərəbistanında İki televiziya kanalı mövcuddur: verilişləri ərəb dilində gedən Birinci kanal və verilişləri ingilis dilində, xəbərləri isə fransız dilində nümayiş edən İkinci kanal.

***Qəzetlər***

Səudiyyə Ərəbistanında on iki gündəlik qəzet çıxır, onların üçü ingilis dilindədir. İnformasiya Nazirliyinin ölkə daxilində 38, xaricdə isə 9 ofisi mövcuddur. Səudiyyə Mətbuat Agentliyi gecə-gündüz işləyərək xəbərləri ərəb, ingilis və fransız dilində radio, televiziya və qəzetlərə təqdim edir.

***İdman***

Gənclərlə iş üzrə Baş İdarə Şurası gənclərin tərbiyəsi, mədəniyyət və idman sahələrində səviyyələrinin yüksəlməsinə görə məsuliyyət daşıyır. Səudiyyə Ərəbistanında şahin quşu ilə ov, atçapma və dəvə yarışı kimi ənənəvi idman növləri indiyə qədər əhali arasında geniş yayılmışdır. Lakin onlarla bərabər müasir beynəlxalq idman növləri də ölkədə inkişaf etməkdədir və hazırda bədən tərbiyyəsi tədris proqramlarında əsas yer tutur. Bu gün hər bir Səudiyyə vətəndaşı, ən yüksək beynəlxalq standartlara uyğun olan gözəl idman saraylarında, oxatmadan və veloidmandan başlayaraq basketbol və futbol kimi idman növləri ilə məşğul ola bilir. Belə idman kompleksləri Səudiyyə Ərəbistanın bütün böyük şəhərlərində inşa edilmişdir. Gənclərlə işl üzrə Şura Səudiyyə gəncələrinin idman tədbirlərində iştirakını həvəsləndirir və bu, idmanın inkişafına investisiyaların qoyulması ilə yanaşı, beynəlxalq və regional səviyyəli yarışlarda yüksək nailiyyətlərin əldə edilməsinə gətirib çıxarmışdır. Səudiyyə futbol komandaları müvəffəqiyyətlər qazanmış, ərəb ölkələri və Görfəz ölkələri arasında keçirilən yarışlarda qalib olmuşlar. Səudiyyə Ərəbistanı yığma komandası Olimpiya oyunlarının daimi və fəal iştirakçısına çevrilmişdir. Bu 1984-cü ildə (1405 h.) Səudiyyə futbol və tüfəngdən güllə atma komandalarının Olimpiya oyunlarında iştirakından sonra baş vermişdir. Gənclərlə iş üzrə Şura gənc idmançıların yerli yarışlarda iştirakını arqışlayır və idman klublarını və federasiyalarını maddi yardımla təmin edir.

Bundan başqa, Mədəniyyət və İncəsənət üzrə Səudiyyə cəmiyyəti vasitəsilə o, idman komplekslərini, stadionları, gənclər mehmanxanalarını, idman düşərgələri və klublarını maliyyələşdirir. Atçapma yarışları Səudiyyə Ərəbistanının tarixi idman irsinin bir hissəsidir. Hazırki vaxtda bu idman növünə Vəliəhd Şahzadə Əmir Abdullanın başçılıq etdiyi Çaparlar Klubu hamilik edir. Klub Krallığın ərazisində atçapma qaydaları və atların yetişdirilməsində standartlara riayət edilməsinə nəzarət edir.

***İdman qurğuları***

Ər-Riyadda 1988-ci ildə(1409 h.) inşa edilmiş və sahəsi 500 min kv.m olan Kral Fəhd adına stadion Səudiyyə Ərəbistanının ən böyük idman qurğularındandır. Bu ağ rəngli qurğu çadır şəklində, ən yüksək beynəlxalq standartlara uyğun olaraq tikilmişdir. O, 120 min nəfərlik tribunaları olan futbol stadionundan ibarətdir. Burada Olimpiya oyunları standartlarına uyğun olan qaçış zolaqları, tibb məntəqələri, kütləvi informasiya vasitələri işçiləri üçün təchiz olunmuş xüsusi yerlər və 3.000 nəfərlik restoran yerləşir. İdman kompleksləri Məkkə, Mədinə, Taif, əl-Qasım, Əbha, Tabuk, əl-İhsa, Xail, əl-Xubar, Ciddə, Cizan, əl-Məcamə, əl-Baha, əl-Qurayt, və əl-Hafca şəhərlərində və vilayətlərində də tikilmişdir. Bu idman komplekslərinin hər birisi 20 mindən 30 minə qədər tamaşaçı yerləşdirə bilir. Hər birisi qaçış zolaqları, gənclər üçün yataqxanalar, oyun meydançaları, bağlı arenalar, məscid, üzgüçülük hovuzu, tibb mərkəzi və konfrans zalından ibarətdir. Hazırda Səudiyyə Ərəbistanında 153 idman klubu fəaliyyət göstərir, 1970-ci ildə (1390 h.) onların sayı 53 idi. 1970-1995-ci illər ərzində Gənclərlə iş üzrə Şura idman klublarına 3,4 mlrd.s.r. (906 mln. dollar) məbləğində maddi yardım etmiş və 24 ən yaxşı klub üçün idman bazası inşa etmişdir.

***Beynəlxalq sahədə idman nailiyyətləri***

Səudiyyə Olimpiya komitəsi 1964-cü ildə (1484 h.) yaradılmışdır və 19 idman federasiyasından ibarətdir. Olimpiya komitəsi ov, at çapma və oxatma kimi qədim ənənəvi ərəb idman növlərinə hamilik edir, həmçinin futbol, basketbol, tennis, veloidman, qaçış, jüdo kimi başqa beynəlxalq idman növlərinə də maraq göstərir. Komitə idman məşqçilərini hazırlayan institut və idmançılar üçün travmatoloji xəstəxana yaradıb. Səudiyyə Ərəbistanı beynəlxalq idman yarışlarında getdikcə daha fəal iştirak edir. Futbol ölkədə geniş populyarlıq qazanmışdır. Krallığın yığma komandasının müvəffəqiyyətləri idman həvəskarlarını ruhlandırır. Belə ki, Səudiyyə Ərəbistanının gənclər futbol komandası 1989-cu ildə Beynəlxalq Gənclər Kuboku, 1984-cü, 1988-ci və 1996-cı illərdə Asiya Kuboku kimi bir sıra beynəlxalq mükafatlar qazanmışdır.

## Planlaşdırma Nazirliyi «İnkişaf Planının nailiyyətləri: faktlar və rəqəmlər (1970-2001-ci illər)» adlanan19-cu bülletenini nəşr etmişdir

Nazir Xalid bin Məhmud əl-Quseybi bülletenin təqdimat mərasimində qeyd etmişdir ki, kitab məzmunu, fəsillərə bölünməsi və xarici görünüşü ilə İki Müqəddəs Məscidin Xadimi Kral Fəhd Əbdüləziz Al Saudun Allah Onu hifz etsin! hakimiyyətinin 20- illiyinə həsr olunmuş və idarəçilikdə bu mərhələdə əldə etdiyi böyük nailiyyətlər haqda məlumat verir.Nazir qeyd etmişdir ki, kitabın buraxılışı yeddinci inkişaf planının birinci ilinin axırına təsadüf etmişdir. Bu müddətdə Səudiyyə Ərəbistanının iqtisadi inkişafının yeni mərhələsinin cizgilərini aydın-aşkar edən və iqtisadiyyatın sürətli inkişafını, güclü müasir infratstrukturun yaradılmasını, idarə orqanların strukturlarının yaradılmasını, xüsusi sektorun maddi, texniki və idarəçilik qüvvəsinin davamlı yüksəlişini, yerli və xarici investisiyaların cəlb edilməsinə zəmin yaradılmasını və milli iqtisadiyyatın yaradılması üçün müsbət amillərin mövcudluğunu, onun yerli, regional və beynəlxalq miqyasda baş verən dəyişikliklərə uyqunluğunu təsdiq etmiş və stabillikdə, maliyyə tarazlığında və vergilərlə bağlı vəziyyətin yaxşılaşmasında əksini tapmışdır. Nazir hesab edir ki, Səudiyyə Ərəbistanının iqtisadiyyatı neft bazarını fəth etmək üçün bir çox neqativ halların öhdəsindən gəlmişdir və bunun hökümətin məsrəflərini, xaricdən mal və xidmət alışını maliyyələşdirən ən mühüm maliyyə mənbəyi olan neftdən alınan gəlirlərdə əks olunması haqda xəbər vermişdir. Yeddinci inkişaf planının birinci ili əsnasında hökümət tərəfindən bütün sahələrin tənzimlənməsi, maliyyə kapitalın və ödəmə balansının vəziyyətinin yaxşılaşması mümkün olmuşdur.Bu iqtisadiyyatın inkişafınının davamlı olmasına müsbət təsir etmiş, Səudiyyə Ərəbistanı həyata keçirtdiyi inkişaf planının effektivliyini təsdiq etmişdir. Əhalinin həyat səviyyəsinin daimi yüksəlişinin dəlaləti olan təlim-təhsil, peşə tədrisi, səhiyyə, kommunikasiyalar, məişət və sosial xidmətləri və s. sahələrdə tərəqqi bu planın həyata keçməsinin bəhrəsidir.Bülleten Qadir Allahın köməyi ilə və İki Müqəddəs Məscidin Xadiminin və Vəliəhdin (Allah Onları qorusun!) müdrik rəhbərliyi altında əldə olunmuş böyük nailiyyətləri nümayiş etdirir.Bülletenin əvvəlində mündəricat, diaqramlar, statistik cədvəllər və s.siyahısı verilmişdir.Birinci fəsildə Səudiyyə iqtiadiyyatının inkişafından, ikinci fəsildə əsas istehsal vasitələrindən və iqtisadi resursların inkişafından söz gedir, üçüncü fəsil isə humanitar, sosial və səhiyyə sahələrində əldə edilmiş nailiyyətlərə həsr edilmişdir.Statistik cədvəllər ümumi maliyyə vəziyyəti, ümummilli daxili məhsul, investisiyalar, nəğd pul və kommersiya ilə bağlı işlərin vəziyyəti, həyat səviyyəsinin,qiymətlərin,suyun,elektrik enerjisinin, kənd təsərrüfatının standartları, bəşəri resursların inkişafınını, səhiyyə, sosial, nəqliyyat və kommunikasiyalar sahəsində tərəqqini nümayiş etdirir.Kitab 382 böyük həcmli səhifədən ibarətdir.

## Kosovo həkimləri



Kosovo və Çeçenistana təcili kömək müştərək Səudiyyə komitəsinin sədri Zati-aliləri Daxili İşlər Naziri Əmir Nayif bin Əbdüləzizin göstərişini həyata keçirərək keçən həftə Krallığın səhiyyə müəssisələrində Kosovodan olan həkimlərin profesional hazırlığı proqramı çərçivəsində beş həkimin hazırlıq mərhələsi başlanmışdır.Müştərək Səudiyyə komitəsinin nəzdində Kosovo komitəsinin koordinatoru Saleh bin Məhəmməd əl-Həmid bəyan etmişdir ki, həkimlərdən üçü səudiyyə-alman klinikasında neyroxirurqiya, mədə-bağırsaq və öd kisəsi xəstəliklərinin cərrahiyəsi sahəsində çalışıcaq, ikisi isə Kral Xalid adına Universitet xəstəxanasında yemək borusu və göz xəstəlikləri cərrahiyəsi sahəsində təlim keçəcəklər.Təlim müddəti 3 aydan 6 aya kimidir.O, qeyd etmişdir ki,Komitə tərəfindən göndərilən Kosovo həkimlərinin ixtisas səviyyəsinin artırılması və müavir texniki təchizatın istifadəsi məqsədilə aparılan professional təlimləri davam edəcəkdir. Bu proqramın həyata keçirilməsindən başlayaraq artıq Kosovadan on həkim təlim kurslarını keçmişdir.

## Dəniz daşınmaları barədə məlumat

Səudiyyə Ərəbistanı Dəniz Daşınmaları üzrə Milli Şirkətinin cari ilin birinci yarımilində saf gəliri 50.86 mln. s.r. təşkil etmişdir.Şirkətin dünən nəşr olunmuş hesabatında qeyd olunur ki, cari ilin ikinci rübündə gəlir 30.48 mln.s.r. olmuşdur ki, bu birinci rübün gəlirlərindən (20.37 mln.s.r.) 50% artıqdır. Şirkətin idarə heyəti bu artımı dəniz nəqliyyatına zərər vura biləcək səbəblərin ləğvi ilə izah edir və onlar aşağıdakılardır: zərərlərin səbəblərinin aradan qaldırılması; istismar və maliyyələşdirmə xərclərinin azalması; xam neft, onun emalı və neftkimya məhsullarının istehsalı ilə bağlı olan biznesə qoyulan investisiyaların artımı.Cəlirin artımı nəticəsində dörd nəhəng tanker alınmışdır. Onlardan üçü: «Hərad» ğankeri 2001-ci ilin oktyabrında, «Mərcan» 2002-ci ilin fevralında, «Səfəvi» 2002-ci ilin may ayında artıq ölkəyə gətirilib, dördüncü tanker Bəqiqə 2002-ci ilin oktyabrında çatdırılacaq.

## 2003-cü ildə Seul şəhərində(Cənubi Koreya) keçirilməsi planlaşdırılan korrupsiyaya qarşı üçüncü beynəlxalq konfransın təşkili ilə bağlı 15 iyul 2002-ci il tarixdə keçirilmiş müşavirədə Səudiyyə Ərəbistanı Krallığının iştirakı

Müşavirədə Səudiyyə Ərəbistanını Ədliyyə Nazirinin müavini doktor Abdulla Saleh əl-Hadisi təmsil etmişdir. Onun sözlərinə görə müşavirənin işində 12 ölkənin nümayəndəsi iştirak etmişdir.Doktor əl-Hədisi Səudiyyə Ərəbistanının korrupsiya ilə mübarizəyə həsr olmuş beynəlxalq konfransın hazırlıq komitəsinə Yaxın Şərq regionunda yerləşən ərəb ölkələrinin təmsilçisi kimi seçilməsi onun bu sahədə beynəlxalq arenada xidmətlərinə və bundan öncə ABŞ-da və Hollandiyada keçirilmiş konfransların işində fəal iştirakına görə olmuşdur. Doktor əl-Hədisi bəyan etmişdir ki, Səudiyyə Ərəbistanının bu konfransda iştirakının əhəmiyyəti çox böyükdür, ona görə ki, orada Səudiyyə dövləti müzakirə olunan məsələ ilə bağlı İslam Şəriətini təcəssüm edən mövqeyini bəyan edir. O, qeyd etmişdir ki, əvvəllər də Səudiyyə Ərəbistanı dəfələrlə bu sahədə öz rəhbər rolunu nümayiş etdirmiş və bu da korrupsiyaya qarşı mübarizə ilə məşğul olan Səudiyyə xüsusi orqanlarının xidmətidir.Doktor əl-Hədisi Ədliyyə Naziri doktor Abdulla bin İbrahim Al Əş-Şeyxin qoyulan məqsədlərə nail olmaq üçün bu istiqamətdə imkanların araşdırmasını başlamağını nəzər diqqətə çatdırmışdır.Qeyd etmək lazımdır ki, korrupsiya ilə mübarizəyə həsr olunmuş birinci ümumdünya forumu 1999-cu ildə ABŞ-nın vitse-prezidenti Al Qorun təşəbbüsü ilə keçirilmişdir. Bu forum nazirlər səviyəsində keçmiş və onun məqsədi korrupsiyanın səbəbləri, onun qabağını alma və onunla mübarizə yollarının araşdırmasından ibarət olmuşdur. İkinci forum Hollandiya hökümətinin təşəbbüsü ilə və ABŞ nın himayəsi altında keçirilmişdir.Bunun hamısını nəzərə alaraq, ikinci forum və 2001-ci ilin oktyabrında keçirilmiş korrupsiyaya qarşı 10-cu beynəlxalq konfrans zamanı hazırlanmış birgə bəyanatın Seul şəhərində keçiriləcək korrupsiyaya qarşı 11-ci beynəlxalq konfransında qəbulu planlaşdırılır.

## «Aramko» kompaniyası işlərin 50%-ni müəyyən olunmuş vaxtdan əvvəl yerinə yetirmişdir



« Aramko» Səudiyyə şirkəti Həradda (əz-Zəhrandan 280 km cənub-şərqə doğru) qaz layihəsi üzrə işlərin 50% -ni müəyyən edilmiş vaxtdan əvvəl yerinə yetirməsini bəyan etmişdir. Bu layihə Səudiyyə Ərəbistanında sırf qaz yataqlarının kəşfi və işlənməsi proqramı çərçivəsində ən vacibl layihə sayılır. «Aramko» dan verilən xəbərə görə, Həradda yerləşən qaz emalı qurğusunun2003-cü ildə işə salınmasından sonra hazırda gündəlik qaz ixracı 1,5 mlrd. kub m olan əsas qaz boru kəmərinin gücü 7 mlrd kub. m çatacaqdır.Ehtimal olunur ki, təmiz xam qazı emal edən qurğunun istehsal gücü hər gün1,6 mlrd. kub.m təşkil edəcək və beləliklə qaz kəmərinin ümumi gücü 9 mlrd. kub.m çatacaqdır. Layihəyə görə 145 min barrel yüksək keyfiyyətli qaz kondensatı emal edilərək 230 km uzunluğunda boru kəməri vasitəsilə təkrar emal üçün Bəqiqdə yerləşən qurğuya ötürüləcək, sonra isə yerli bazarın tələbatını ödəyən məhsulların istehsalı üçün Ras Tənnuraya göndəriləcəkdir.«Əl-Vətən» in müxbirinə verilmiş məlumata görə, layihə üzərində iş 2003-cü ilin ortalarında başa çatmalıdır. Digər mənbənin məlumatına əsasən, Həradda qaz layihəsinin idarə heyəti tərkibinin 90%-ni səudiyyəlilər təşkil edir.

### Səudiyyə Ərəbistanında istehsal

1421-ci hicri ilində Səudiyə Ərəbistanında emal sənayesi zavodların sayına görə birinci yer tutmuşdur (960 zavod, bu da zavodların ümumi sayının 28,15% təşkil edir).Sənaye və Energetika Nazirliyinin 1422-ci hicri ilinin (2001-ci il) statistik bülleteninin məlumatına istinadən ər-Riyad şəhəri zavodların sayına görə birinci yeri tutmuş və onların sayı 1.203 zavod, yəni zavodların ümumi sayından 35,2% təşkil etmişdir.1421-ci hicri ilinin axırında 1412-ci hicri ili ilə müqayisədə kiçik yaşayış məntəqələrində zavodların sayı böyük şəhərlərə nisbətən artmışdır.İstehsalatın maliyyəşdirilməsində böyük dəyişikliklər baş vermiş, kimya sənayesi və plastmas istehsalı müəssisələrinə qoyulan investisiya həcminə görə əsas yer tutmuş və bu da Səudiyyə Ərəbistanının bütün zavodlarına qoyulmuş investisiyalarının 63,2% təşkil etmişdir.Statistik məlumatlar göstərir ki, 1421-ci hicri ilində zavodlara qoyulmuş investisiyaların həcmi 240,1 mlrd. s.r. olmuşdur ki, bu da 1412-ci hicri ilində qoyulmuş investisiyaların həcmindən 74,2 % artıqdır. Fəhlələrin zavodlara və rayonlara görə bölünməsinə gəldikdə



Şəhərlərdə 111.965 fəhlə çalışızki bu da Səudiyyə Ərəbistanında işləyən fəhlələrin ümumi sayından 35,1 % təşkil edir). 1321-ci hicri ilinin axırında 1412-ci hicri ilə müqayisədə fəhlələrin ümumi sayı 4,5 % artmışdır.Səudiyyə istehsalat müəssisələri Qadir Allahın və İki Müqəddəs Məscidin Xadimi Kral Fəhd bin Əbdüləziz Al Səudun (Allah Onu qorusun!) hökümətinin köməyi ilə məhsullarının dünyanın bütün ölkələrinə ixrac olunmasında böyük müvəffəqiyyətlər əldə etmiş və səudiyyə məhsulları dünya və ərəb bazarlarında layiqli yer tutmuşlar.Müasir istehsalatlar kompaniyasının xarici əlaqələr şöbəsinin müdiri Əhməd Lənəcavi qeyd etmişdir ki, 1995-2001-ci illər ərzində kompaniyanın əsas ixrac məhsullarının çox hissəsini yuyucu toz, şampun və təmizləyici vasitələr təşkil etmişdir və ixracatın ümumi məbləği 3 mlrd. s.r. olmuşdur.O, qeyd etmişdir ki, kompaniyanın zavodları ümumi həcmi 57 ton təşkil edən məhsullarını Yaxın Şərq, Avropa, Asiya və Afrikanın 40 ölkəsinə ixrac etmişdir. Şöbə müdiri həmçinin vurğulamışdır ki, kompaniya dünya bazarına yüksək keyfiyyətli və rəqabət apara bilən məhsulların çıxarması siyasətini həyata keçirir. Səudiyyə Ərəbistanı hər il istehsal etdiyi məhsulların ümumi həcminin 50% xaricə ixrac edir.



## Krallığın Fələstin xalqına yardımı

İsrail hökümətinin Fələstin muxtariyyəti ərazisi üzərində uzun müddət ərzində tətbiq etdiyi zalım iqtisadi blokada və son vaxtlar həmin ərazilərdə İsrail ordusunun hərbi dağıdıcılıq əməliyyatları nəticəsində vəziyyət daha da pisləşmiş və əhalinin həyatı və məişəti dözülməz olmuşdur. Bunu, habelə, qeyd olunmuş səbəblərdən Fələstin muxtariyyəti ərazilərində infrastrukturanın məhv olmasını, orada insan həyatı üçün zəruri olan ərzaq məhsullarının və dərmanların çatışmamazlığı və bunun da insani cəhətdən heç vəclə qəbul olunmayan epidemiya və xəstəliklərə səbəb olması təhlükəsini nəzərə alaraq, habelə Səudiyyə Ərəbistanı Krallığının ümumən müxtəlif dünya ölkələrinə, xüsusən də zəif inkişaf etmiş ölkələrə yardım göstərmək siyasətinə uyğun olaraq Krallıq bir an belə tərəddüd etmədən bütün mümkün vasitələrlə Fələstindəki qardaşlara inkişaf və təchizat sahələrində yardım göstərmiş və göstərir. Səudiyyə Ərəbistanının istər hökümət istərsə də ümumxalq səviyyələrində göstərdiyi yardımlar daha da çox təcili zəruri ərzaq məhsulları və tibbi preparatlar, Fələstin muxtariyyəti ərazilərində inkişaf obyektlərinin tikintisini və əlavə olaraq Ümumərəb zirvə görüşünün qərarlarına müvafiq Fələstin milli administrasiyasının büdcəsinə yardımlar şəklində olmuşdur. Aşağıda Səudiyyə Ərəbistanın Fələstinlilərə göstərdiyi yardımların qısa xarakteristikası verilir:



Krallıq hökümət və qeyri -hökümət xətti ilə 8.900 mln.s.r. həcmində yardım göstərmişdir;

Fələstin xalqını müdafiə etməkdə davam edən Səudiyyə Ərəbistanı adından Qahirədə keçirilmiş fövqəladə zirvə görüşündə Baş Nazirin birinci müavini, Milli Qvardiyanın rəisi, Vəliəhd, Şahzadə Əmir Abdulla bin Əbdüləziz kapitalı1 milyard ABŞ dolları olmaqla «əl -Aqsa» və « İntifada» fondları yaratmaq təşəbbüsü ilə çıxış etdi və Krallıq, onların kapitalının 25% həcmindəki 250 milyon ABŞ dolları məbləğini həmin fonda köçürməyi öhdəsinə götürdü. Artıq həmin məbləğ üzrə axırıncı köçürmə 14.071422-ci h. ilində həyata keçirilmiş və Krallıq öz payını tam ödəmişdir;

Qüds intifadəsinə yardım üzrə Səudiyyə komitəsi tərəfindən işğal olunmuş ərazilərdəki zərəçəkənlərə və ehtiyacı olanlara göstərilmiş bilavasitə yardımların miqdarı h. 1422 -ci il Zil -Qaadə ayının sonunadək 209.505.370 s.r. olmuşdur

2002-ci ilin üç ayı ərzində Fələstin administrasiyasına Ümumərəb yardımı komissiyasının qərarına uyğun olaraq Krallıq hər ay 15 mln. ABŞ dolları olmaqla 45 mln.dollar həcmində yardım göstərmişdir; hicri 1423 -cü il Məhərrəm ayının 13 -14-də Beyrut şəhərində keçirilmiş zirvə görüşü çərçivəsində Ərəb Ölkələri Liqası Fələstin administrasiyası büdcəsinə maliyyə yardımı göstərmək barədə qərar qəbul etdi. Qərara görə aprel 2002 -ci ildən başlayaraq altı ay ərzində,hər ay 55 mln. dollar olmaqla bu büdcəyə330 mln. ABŞ dolları yardım göstərilməli, əgər İsrail işğalı davam edərsə və Fələstin administrasiyasının buna ehtiyacı olarsa, bu aksiya növbəti altı ay üçün



uzadılmalıdır. Qərara alındı ki, bütün məbləğ qrant şəklində olmalı və bütün ərəb ölkələri bu işdə icbari qaydada Liqadakı üzvlük haqqlarına nisbətən paylarla iştirak etməlidir.Əlavə yardım göstərən ərəb ölkələri isə alqışlanırlar.

Yardımlar bu məqsədlə açılmış xüsusi hesaba köçürülməlidir. Krallıq artıq 15 mln.400min ABŞ dollarını 26.01.1423 hicri ilində həmin hesaba köçürmüşdür. Hesaba nəzarəti Ərəb Ölkələri Liqası həyata keçirir. Köçürülmüş məbləğ Krallığın Fələstin administrasiyası büdcəsinə yardımının aprel ayı üçün olan hissəsi və may ayı üçün hissənin də əvvəlcədən ödənişidir ki, bunu da Krallıq Fələstin administrasiyasının hazırki maliyyə çətinliklərini nəzərə alaraq etmişdir.

Son vaxtlar Krallıq aşağıdakı yardım proqramlarını da həyata keçirmişdir:

2 min ton xurma göndərilmişdir;

ərzaq karvanı içində vaksinalar, qan, yanığa qarşı dərmanlar və sair tibbi preparatlar göndərilmişdir;

Səudiyyə Milli Televiziyasının bir az öncə həyata keçirtdiyi Fələstin xalqına yardım üçün ianələr yığılması kampaniyası çərçivəsində 410 mln. rial yığılmışdır ki, bundan da məqsəd İsrailin apardığı müharibə nəticəsində dağıdılmış xəstəxanaların, məktəblərin, evlərin və ümumi xidmət obyektlərin bərpa edilməsidir.

ərzaq məhsulları və dərmanlardan ibarət maşın karvanı İordaniyaya çatmış və oradan onu Səudiyyəli həkimlər, jurnalistlər və administrativ işçilərdən ibarət qrup Fələstinə müşayət etmişdir.

## Narkomaniya: cinayət, yoxsa xəstəlik?



«Hyatt Regency» hotelində Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyası Səudiyyə Ərəbistanının Dünya İslam Gənclər Assambleyası beynəlxalq humanitar təşkilatının Azərbaycandakı nümayəndəliyi ilə birgə «Gənclər narkotiklərin əleyhinədir» mövzusunda konfrans keçirdi.Dövlət və xarici ölkə nümayəndələrinin qatıldığı bu tədbirdə narkomaniyanını cinayət deyil, xəstəlik olduğu yurğulandı.Səudiyyə Ərəbistanının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Əli Həsən Cəfəri öz ölkəsində narkotik alveri ilə məşğul olanların ən yüksək cəzaya layiq görüldüyünü söylədi. Onun bildirdiyinə görə, şəfa tapmış narkomanların bir il yarım müddətinə əlavə qayğı və nəsihət proqramı üzrə kurs keçmək üçün ABŞ-a göndərilməsi nəzərdə tutulur. Bu proqramdan faydalanaraq şəfa tapmışların sayı 3.700 nəfərdən çoxdan.Daxili işlər nazirinin müavini Zahid Dünyamaliyev 1999-2000-ci illərdə 4.586 nəfərin narkotiklə əlaqədar cinayət məsuliyyətinə cəlb edildiyini söylədi. Onların 1.457 nəfərini 30 yaşa qədər olan gənclər, 11 nəfərini 18 yaşa çatmamış məktəbli və tələbələr, 269 nəfərini qadınlar, 129 nəfərini isə xarici vətəndaşlar təşkil edir. Son iki il yarımda narkotiklərlə bağlı 5.689 cinayət faktı müəyyən edilib. Qanunsuz dövriyyədən ümumi çəkisi 362 kq narkotik vasitə, psixotrop, güclü təsiredici və zəhərləyici vasitələr, o cümlədən tiryək, marixuana, həşiş, kokain və s. aşkar olunaraq götürülüb.Səhiyyə nazirinin müavini Elsevər Ağayev isə 1995-ci ildə 4.900, 2000-ci ildə 9.800, 2001-ci ildə 10.660 narkomaniyadan əziyyət çəkən insanın xəstəxana rejimində , 4.500 nəfərin isə profilaktik müalicə aldığını bildirdi. Əgər son 15 il ərzində narkotik maddə qəbul edənlərin 80 faizi marixuanadan istifadəyə üstünlük verirdisə, hazırda onların 70 faizi damardaxili narkotik qəbul edir. E.Ağayev problemin aradan qaldırılmasında maarifləşdirmə işi ilə bərabər idman təbabətinə də xüsusi yer ayırmağın vacibliyini qeyd etdi.BDU Cinayət hüququ kafedrasının müdiri Firidun Səmədərovun fikrincə, narkomaniyaya qarşı mübarizəyə sistemli yanaşmaq lazımdır. Bu sistemin də özünün mübarizə mexanizmi olmalıdır. Belə olmasa, problemin həllində müvəffəqiyyət əldə etmək çətindir. Həmçinin orqanizmin tələbi ilə narkotik maddələr qəbul edən şəxsin cinayətkar deyil, xəstə olduğu da cəmiyyətə təlqin olunmalıdır.Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov ABŞ-ın son iki ildə hazırladığı hesabatda MDB ölkələri arasında yalnız Azərbaycanın bu sahədə müvəffəqiyyət qazanan ölkə kimi qiymətləndirildiyini bildirdi.





## «Gəz,dünyanı tanı...»

Uşaq və yeniyetmələrin yaradıcılıq mərkəzində keçirilən tədbir belə adlanırdı. Tədbirdə müxtəlif məktəblərin şagirdləri, müəllimlər, valideynlər və dindarlar iştirak edirdilər.Mərkəzin əsas qonaqları Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Əli Həsən Cəfər və Səfirliyin məsul işçiləri idilər. Hörmətli qonağı ərəb milli geyimli şagirdlər gül-çiçəklə qarşıladılar. Nağaraçılar dəstəsi Azərbaycan ritmləri çaldılar.Əli Həsən Cəfər və digər əməkdaşları zaldakılar hərarətlə qarşıladılar. Mərkəzin direktoru Əntiqə Mahmudova qonaqları salamladı. Xor kollektivinin ifasında Azərbaycanın Himni səsləndi və səs ucaldan vasitəsilə SƏK-nın himni eşidildi. Sonra söz kütləvi işlər üzrə təşkilatçı Cavanşir Abdullayevə verildi.Sonra isə Səfir Əli Həsən Cəfər çıxış etdi. Səfir bu görüşdən məmnun olduğunu bildirdi və müstəqil Azərbaycan dövləti ilə Səudiyyə Ərəbistanı Krallığının iqtisadi-mədəni əlaqələrindən danışdı. Prezident Heydər Əliyev 1994-cü ildə dost ölkəyə səfərini xatırladı. Natiq dedi ki, 1 milyard 800 milyon müsəlmanı bir əqidədə birləşdirən Qurani Kərim, Ulu Peyğəmbərimiz Məhəmməd əl-Mustafanın xidmətidir. Bu gün Azərbaycandan minlərlə zəvvarların Həcc ziyarətini getmələri dostluğumuzu, mədəni, iqtisadi əlaqələrimizi bir az da şirinləşdirir.Əli Həsən Cəfər səhnədə asılmış Səudiyyə Ərəbistanı Krallığının xəritəsini, bayrağını, qerbini və ilk Kral Əbdüləziz ibn Əbdürrəhman Al Səudun və Kral Fəhdin portretini göstərib dedi: «Gəlin sizinlə birlikdə bizim ölkəyə səyahətə çıxaq. Coğrafi baxımdan Səudiyyə Ərəbistanı Krallığı Azərbaycana yaxın olsa da bu ölkə barədə məlumatınız çox azdır. Bildikləriniz isə budur ki, Səudiyyə Ərəbistanı Krallığı islam dininin mərkəzi, səhralar, dəvələr, nağıllar ölkəsidir.Səudiyyə Ərəbistanı Krallığının yerləşdiyi Ərəbistan yarımadası üç tərəfdən dənizlə, şərqdən İran və Oman körfəzləri, Cənubdan Ədən və Ərəbistan dənizi, qərbdən Qırmızı dənizlə əhatə olunmuş aydın surətdə nəzərə çarpan iri coğrafi vahiddir.Yarımadada bir neçə ərəb dövlətləri yerləşir. Bunlardan ən böyüyü Səudiyyə Ərəbistanı Krallığıdır. Onun ərazisi 2.21 milyon kv.km.Gördüyünüz bu dövləti 1902-ci ildə XX yüzilliyin ən görkəmli şəxsiyyəti olan Əbdüləziz Əbdürrəhman Al Səud qurmuşdur. Onun portretini görürsünüz. Onun rəhbərliyi dövründə ərəb xalqı böyük hörmət və məhəbbətlə onu Kral Əbdüləziz deyə çağırırlar. Ömrünün 31 ilini Kral Əbdüləziz parçalanmış ölkənin birliyi uğrunda mübarizəyə həsr etmişdir. Kral Əbdüləziz ərəb xalqının həsrətində olduğu sülhü, təhlükəsizliyi, haqq-ədaləti bütün Ərəbistanda bərqərar etdi.Ölkənin birliyi Milli bayram kimi hər il sentyabr ayının 23-də təntənəli surətdə qeyd olunur. Bu tədbir SƏK-nin müstəqillik əldə etməsinin 100-illiyi ərəfəsində keçirilir. Xalqımızı bir-birinə bağlayan tarixi əlaqələr mövcuddur və onlar getdikcə genişlənir və dərinləşir.

# ÖLKƏ HAQQINDA MƏLUMATLAR

***Paytaxt:* *Ər-Riyad şəhəri***

***Rəsmi dil:*** ərəb dili
***Sahəsi:*** 2625 mln kv.km, Qırmızı dəniz sahili xəttinin uzunluğu 1899 km və Ərəb körfəzi sahili xəttinin uzunluğu 549 km-dir
***Mövqeyi:*** Səudiyyə Ərəbistanı Krallığı Ərəbistan yarımadasının əsas hissəsində yerləşir. Ölkə şimaldan Kuveyt, İraq və İordaniya ilə, Şərqdən Ərəb körfəzi, Bəhreyn, Qətər və BƏƏ ilə, cənubdan isə Yəmən və Oman sultanlığı ilə həmsərhəddir
***Əhalisi:*** 1992- ci ildə keçirilmiş siyahıyaalmaya görə ölkə əhalisinin sayı 16 929 294 nəfər olmuşdur ki, onlardan 12 milyonu Səudiyyə vətəndaşlarıdırlar.
***Valyutası:*** Səudiyyə rialı ölkənin əsas pul vahididir.1 rial 20 qirşə, hər qirş isə 5 halala bərabərdir. ( 1 ABŞ dolları təxminən 3, 75 riala bərabərdir ).






### *Nəqliyyat*

Hazırda Səudiyyə Ərəbistanının bütün şəhər və kəndləri hərtərəfli şosse və magistral yollarla bir-birilə bağlıdır və onlar ən yüksək beynəlxalq standlara uyğun tikilmişdir. Krallığın ümumi yol şəbəkəsinin uzunluğunu 43000 km sürətli avtoyollar və şosselər, 96000 km kənd yolları təşkil edir.Hələ oktyabr 1951-ci ildə Krallığın banisi Kral Əbdüləziz ər-Riyad şəhərini şərq regionu ilə birləşdirən dəmir yolunu açmışdı. O vaxtdan etibarən həmin xəttdə böyük modernləşmə işləri aparılmış, 1985-ci ildə isə ər-Riyadı Damman şəhəri ilə birləşdirən və həmin məsafəni 450 km-dək qısaldan və səfər vaxtını 7 saatdan 4 saata endirən yeni dəmiryolu xətti istifadəyə verildi (birinci xəttin uzunluğu 562 km-dir). Ölkənin dəmir yolları ilə ildə 500 000 sərnişin və 2 million tonn yük daşınır.Ər-Riyad, Ciddə və Dammamda yerləşən və dünyada ən iri hava limanları olan aeroportlar Krallığın hava nəqliyyatı xidmətinin əsasını təşkil edir. Ölkədə 1970-ci ildə 16 hava limanı olduğu halda, bu rəqəm 1995-ci ildə 25-ə çatmışdır. Səudiyyə Ərəbistanının milli hava xətləri "Səudiya" yaxın Şərqdə ən böyük təyyarə parkına malikdir və daxili və beynəlxalq xəttlər üzrə ildə 12 million sərnişin daşınmasına imkan verir. Dəniz nəqliyyatı da xeyli inkişaf etmiş, bu sahədə 114 Səudiyyə şirkəti fəaliyyət göstərir. Ölkənin 8 əsas dəniz limanındakı körpülərin sayı artaraq (1975-ci ildə) 25-dən 182-yə çatmışdır (1995-ci il).


**Bülletendə aşağıdakı saytlardan istifadə olunmuşdur**

*Ministry of Foreign Affairs - www.mofa.gov.sa*

***Agfund – Arab Gulf Programme for United Nations Development Organizations - www.agfund.org***
***Ministry of Islamic Affairs – www.Islam***
***Council of Saudi Chambers of Commerce and Industry - www.nusacc.org***
***Majlis Ash Shura - www.shura.gov.sa***
***Ministry of Higher Education - www.mohe.gov.sa***
***Ministry of Planning - www.planning.gov.sa***
***Saudi Arabian Monetary Agency - www.sama.gov.sa***
***Saudi Press Agency - www.spa.gov.sa***
***The Complete Saudi Business Site - saudi-business.com***